oxumaq üçün piano arxasına dəvət edir, qalan şagirdlərdən xahiş edir ki, mahnı oxunan zaman onun ritminə uyğun əl çalsınlar.

Müşahidələr göstərir ki, mahnının bu cür səsləndirilməsi şagirdlərin xoşuna gəlir və onlar müəllimin tapşırıqlarını böyük həvəslə həyata keçirtməyə cəhd göstərirlər.

Dediklərimiz bitdikdən sonra müəllim yenidən şagirdlərə sualla müraciət edir:

M – Uşaqlar, "Pilotlar" mahnı-marş, yoxsa mahnı-rəqsdir.

Alınan cavabların çox əksəriyyəti mahnı-rəqs janrının üstündə dayandılar.

Müəllim sonradan uşaqlara daha belə bir sualla müraciət edir:

M – Uşaqlar, siz böyüyəndə pilot olmaq istərdinizmi?

Sinifdə olan 25 şagirdin (15 qız, 10 oğlan) 17-si (15 oğlan, 2 qız) pilot olmaq arzularını bildirdilər. Yəni oğlanların hamsı gələcəkdə təyyarəçi olmaq istədiklərini bildirdilər.

Göründüyü kimi, adicə bir "Pilotlar" mahnısı şagirdlərdə təyyarəçi olmaq arzusunu yarada bilir.

20№-li məktəbin müəllimi S.Rzayeva digər II^{b} sinfində də "Pilotlar" mahnısını II^{a} sinfində apardığı üsulla deyil, heç bir məlumatlar vermədən, sözlərlə melodiya arasında olan münasibətləri açıqlamadan, xarakteri ətrafında məlumat vermədən şagirdlərə öyrədir və nəticədə məlum olur ki, bu sinifdəki fəallıq, mahnının sözlərinə və melodiyasına münasibət, sərbəst fikir söyləmək kimi keyfiyyətlər özünü II^{a} sinfindən zəif göstərir.

Eyni zamanda "Pilotlar" mahnısı adicə mahnı kimi şagirdlər tərəfindən qəbul edilir, həm də onun hərbi vətənpərvərlik hisslərə təsiri də məlum olmur.

Bu deyilənlər aşağıdakı cədvəldə özünü belə biruzə verir.

Eksperimental sinif (20 şagird)			**Kontrol sinif (20 şagird)**		
"Pilotlar" mahnısının xarakterini düzgün təyin edənlər	"Pilotlar" mahnısını düzgün oxuyanlar	"Pilotlar" mahnısı haqqında sərbəst fikir söyləyənlər	"Pilotlar" mahnısının xarakterini düzgün təyin edənlər	"Pilotlar" mahnısını düzgün oxuyanlar	"Pilotlar" mahnısı haqqında sərbəst fikir söyləyənlər
15 ş. (60%)	14 ş. (56%)	12 ş.(48%)	10 ş. (40%)	8 ş. (32%)	9 ş. (36%)

ƏDƏBİYYAT

1. Ağayev Ə.Ə. “Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi” Bakı, “Maarif” nəşriyyatı, Bakı 1970-ci il, səh.47-48.
2. Fətəliyev X. “Kiçikyaşlı məktəblilərdə vətənpərvərlik tərbiyəsi” “İbtidai məktəb və məktəbəqədər tərbiyə” B.1988, №4, səh.24.
3. N.M.Kamilova “Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində hərbi-vətənpərvərlik tərbiyyəsinin mahiyyəti” metodik tövsiyyə,Bakı-2015.
4. J.H.Qədimova “Musiqi pedaqoqikası tarixi və müasirlik”Bakı-2012.
5. Quliyev S.D. “Musiqi inkişafı və musiqi tərbiyəsi” Bakı, APİ-nin nəşriyyatı 1981, səh.90.
6. Hidayətova F. “Musiqi və vətəndaşlıq tərbiyəsi” B., “Şirvan nəşr” 2009, səh.89, 101.
7. Xəlilov V.C. “Muğamların tədrisinə dair metodik tövsiyyələr” Azərbaycan SSR, Ali və orta ixtisas təhsili nazirliyi, Bakı 1982, səh.44.
8. Xəlilov V.C.“Ibtidai siniflərdə Azərbaycan xalq yaradıcılığı nümunələrinin öyrədilməsi estetik tərbiyə vasitəsi kimi” doktorluq dissertasiyası,Bakı 1995, Azərbaycan Pedaqoji Universitetinin kitabxanası, səh. 350.
9. Kəngərlinskaya T.F. “Tələbələrin xüsusi pedaqoji və ifaçılıq hazırlığı sistemində inteqrativ prinsipdən istifadə” doktorluq dissertasiyanın avtoreferatı, Bakı -2007, səh.51.

Məqalənin redaksiyaya daxil olma tarixi: 07.10.2016
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 09.11.2016
Məqalənin çapa qəbul olunma tarixi: 07.03.2017
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.

MUSİQİ SƏNƏTİ

UOT 168.522

Rəna Məmmədova
AMEA-nın müxbir üzvü,
sənətşünaslıq üzrə elmlər doktoru, professor
AZ1001, г.Баку, ул. Истиглалият 30
e-mail: mamedova7@gmail.com

MUSİQİ TÜRKOLOGİYASININ ƏSASLARI

Açar sözlər: *musiqi, türkologiya, tip, təhlil, millət*

Müqayisəli-tipoloji təhlil – milli musiqi mədəniyyətinin müxtəlif səviyyələrini təhlil prosesinə fəal surətdə cəlb etməyə imkan verən təməl sxemdir. Türk mədəniyyət aləminin müxtəlif vektorlu tədqiqatlarının mövcudluğu şübhəsizdir. Lakin musiqi türkologiyasından müqayisəli musiqişünaslığın bir hissəsi kimi danışarkən, fikrimizcə, bu fenomenin dərk edilməsində ilkin, əsas mərhələ müqayisəli tipoloji təhlildir. Fikrimcə, Azərbaycan musiqişünaslığının ən aktual və eyni zamanda mürəkkəb problemi milli musiqi mədəniyyətinin türk köklərinin tədqiq edilməsidir. Qeyd etmək lazımdır ki, türkdilli xalqların musiqi əlaqələrinin yaranması və bu əlaqələrin genetik təməlinin izahı nəinki türk musiqi sisteminin bütövlüyü və monolitliyi barədə təsəvvürlərin formalaşmasına şərait yaradır, həm də onun ayrı-ayrı komponentlərini daha dolğun xarakterizə etməyə imkan verir.

Рена Мамедова

ОСНОВЫ МУЗЫКАЛЬНОЙ ТЮРКОЛОГИИ

Ключевые слова: *музыка, тюркология, тип, анализ, нация*

Сравнительно-типологический анализ является той самой опорной схемой, которая позволяет активно вовлекать в процесс анализа разные уровни национальной музыкальной культуры.

Безусловно право на существование разновекторных исследований тюркского культурного мира. Но, говоря о музыкальной тюркологии, как части сравнительного музыкознания, на наш взгляд, начальным, базовым звеном в познании этого феномена является сравнительный типологический анализ. На мой взгляд, наиболее актуальной и, вместе с тем, сложной проблемой азербайджанского музыкознания является проблема изучения

тюркских корней национальной музыкальной культуры. Важно подчеркнуть, что установление музыкальных связей тюркоязычных народов и объяснение генетической основы этих связей способствует не только складыванию представления о цельности и монолитности тюркской музыкальной системы, но и позволяет полнее характеризовать отдельные ее компоненты.

Rena Mammadova

PRINCIPLES OF MUSIC TURKOLOGY

Key words: *music, turkology, type, analysis, nation*

Comparative and typological analysis – is the basic scheme giving an opportunity to draw different levels of national music culture actively to the process of analysis.

The right to be present various vector researches of the world of Turkish culture is doubtless. But, when it is talked about music turkology as one part of comparative musicology, in our opinion, the first and main stage in perceiving of this phenomenon is comparative typological analysis. In my opinion, the most actual and at the same time, most complicated problem of Azerbaijan musicology is investigation of Turkish roots of national music culture. It must be noted that, formation of musical relations of Turkic peoples and explanation of genetic foundation of these relations not only creates a condition for formation of ideas about entirety and firmness of Turkish music system, but also gives an opportunity to characterize its separate components more profoundly.

Musiqi türkologiyası problemlərinin işlənilməsində tarixi təfəkkür məntiqi prinsipial əhəmiyyət daşıyır. Onlar ümumtürk musiqi mədəniyyətinin mürəkkəb vahidliyinə tarixi hərəkətdə, onun tərkib hissələrinin bütövlüyü və inkişafı kontekstində yanaşmağa şərait yaradır. Regional müxtəliflik arxasında türk özünüdərkinin tarixi inkişafının magistral ümumi xəttlərini ayırd etmək lazımdır. Daha sonra isə türk musiqi sistemində «fərdiləşən» və «ümumiləşən» səciyyəviliyin nisbətində əks olunan universal kateqoriyalara aid edilə biləcək prosesləri başa düşmək olar. Axı yaradıcılıq simasının özünəməxsusluğuna malik olan hər bir milli ənənə ümumtürk bədii mədəniyyətinin əsas qanunauyğunluqları məcrasında inkişaf edir.

Ümumtürk musiqi üslubunu «tarixi üslub» adlanlırmaq olardı, çünki o, genezisi haqda unikal informasiya daşıyır. Məsələn, türk qəhrəmanlıq eposunu

tədqiq edən V.Jirmunski onun əsasında üç mədəni təbəqə fərqləndirir: «Ən qədim, tarixdənəvvəlki... Ikinci təbəqə, əsas etibarilə tarixidir. Axırıncı, nisbətən son təbəqə eposun müsəlmanlaşmasını müəyyənləşdirmişdir»1. Fikrimizcə, analoji struktur ümumtürk musiqi ənənəsinin musiqi məzmununda da mövcuddur. Etnomusiqişünaslığın klassik postulatını yada salaq: «Musiqinin etnik xarakteri müəyyən bir dövrdə musiqidə səs materialının bu və ya digər tarixi mərhələlərə xas olan təşkili üsullarının üstünlüyü ilə müəyyənləşir»[1]. Bununla əlaqədar qeyd etməliyik ki, musiqi törkologiyasının makrosistem kimi ən maraqlı problemlərindən biri kimi ümumtürk etnik mədəniyyətinin ən qədim təbəqələrinin öyrənilməsi, onların müəyyən tarixi yaranma mərhələləsinə müvafiq soy spesifikasının fəaliyyətinə təsir göstərən faktorları aşkarlamaq, onların mövcudluğu və sonrakı üslub qatları ilə qarşılıqlı əlaqəsi mexanizmini müəyyənləşdirmək zəruridir. Daha sonra isə diqqəti bu arxetiplərin türkdilli xalqların bədii yaradıcılığının müxtəlif janr kateqoriyalarında təcəssümünə yönəltmək lazımdır. Buradan da növbəti addım atılmalıdır – ən qədim musiqi intonasiyaetmə formalarının hiss olunduğu janr şaxələrinin ictimai şüura təsiri xarakterinin öyrənilməsi.

Əlbəttə, bu və digər türk xalqının milli ənənələrində arxetipik elementlərin qəlibləşməsi, sabitliyi sərəcəsi prinsipial surətdə müxtəlif ola bilər. Hər bir milli ənənə öz daxili inkişaf məntiqinə malik müstəqil, bütöv, dinamik bir orqanizmidir. Eyni zamanda bir qayda olaraq yaxın əlaqələr müəyyən bir mədəniyyətə bədii yaradıcılığın inkişafı üçün yeni impulslar verir, daxili qüvvələri tezcə səfərbərliyə alır, müsbət təsir göstərirdi.

Ümumtürk musiqi sistemində bütün mümkün genetik və tipoloji əlaqələr nümunələri vardır. Məhz ona görə də bu sistem kompleks araşdırmalar üçün münbit bazadır. Qeyd edək ki, ümumtürk musiqi mədəniyyəti sistemində lokal (yerli) proseslərin öyrənilməsi prosesində məsələ yalnız bu regiona aid mədəniyyətlər arasında fərqli və oxşar cəhətlərin müəyyənləşdirilməsində deyil. Əsas məsələ bu regionun bədii sistemini ümumtürk spesifikasının çoxsaylı inkişaf variantlarından biri kimi, vahid bədii başlanğıcları, türkdilli xalqların regional musiqi ənənələrinin tipoloji paralellərinin mahiyyətini dərk etməkdir. Bu sistemin tarixinin ayrılmaz parçası olan xalqların mənəvi həyatı ilə əlaqəsini aydınlaşdırmaq vajibdir. Deməli, musiqi proseslərinin milli spesifikasının tipoloji aspektdən öyrənilməsi tarixi proseslərdən təcridedilməzdir. Bunun da nəticəsində tarixi tipologiya problemi musiqi türkologiyasının əsas məsələsi

[1] И.В.Квитка. К вопросу о тюркском влиянии. Избр. труды в 2-х томах. Т.1, М., Сов. композитор, 1971, с.10.

kimi gündəmə gəlir və müqayisəli metodologiyanın ümumi sistemində onun universallığı və çoxcəhətliliyinin təzahürlərindən biri kimi baxılmalıdır.

Tarixi-musiqi proseslərinə münasibətdə Azərbaycan və türk musiqisi müəyyən dövrdə, müəyyən joğrafi sərhədlərdə təşəkkül daxilində tipoloji cəhətdən oxşar musiqi proseslərinə malik tarixi-mədəni zonalar (sonrakı tarixi dəyişikliklərə məruz tapmış qalan) sistemi kimi formalaşmışdır.

Bizim tədqiqatımız kontekstində onlar ümumtürk mədəniyyətinin formalaşması tarixinin öyrənildiyi ilkin müqayisə zonalarıdır. İki musiqi mədəniyyətinin müqayisəli təhlili musiqi proseslərinin daha geniş ümumtürk miqyasında müqayisəli araşdırılması üçün təkan nöqtəsidir. Başqa sözlə desək, bu zonalardan kənara çıxaraq, ümumtürk mədəniyyətlərinə daha geniş kontekstdə baxışda bu mədəniyyətlərin makrosisteminin araşdırılmasına yönəlmiş müqayisəli metodun məntiqi formalaşır. Prinsipjə, ümumtürk musiqi üslubunun aparıjı xətlərinin bu cür ümumiləşdirilmiş tədqiqi bu gün tarixən və məntiq baxımından əsaslıdır. Bu da qanunauyğundur, çünki tamamilə aydındır ki, hər iki mədəniyyətdə müqayisəli tədqiqin əsas vahidi kimi tipoloji sıraların nəzəri dərkedilməsindən kənarda musiqi türkologiyasının ümumi qanunauyğunluqlarının öyrənilməsi təsvirji xarakter daşıyajaq. Tədqiqatda əsas halqalar bir tərəfdən musiqi strukturunun məzmun ilə qırılmaz əlaqəsi, digər tərəfdən, həmin strukturların tarixi spiralın yeni dönəmində, fərqli tarixi-mədəni variantlarda təkrarlanması və əlaqələrin xarakteri olacaq. Beləliklə, ümumi tipoloji sıra anlayışı eyni zamanda, həm struktur, həm də tarixi anlayışdır. O, həm müqayisə edilən qurumların (strukturların) sabitliyini, həm də onların dinamik inkişafını əks etdirir. Fikrimizcə, Azərbaycan və Türkiyə xalq musiqisinin tipoloji vahidliyi məhz ümumi dinamiklikdir.

Beləliklə, ümumtürk musiqi mədəniyyəti fenomeni anlayışının formalaşması musiqi şərqşünaslığının mühüm problemlərindən biridir. Tipoloji problemlərin ön plana çəkilməsi, bir tərəfdən, türkdilli xalqların musiqi ənənələrinə qlobal miqyasda, ümumtürk mədəniyyəti dünyasında baxmağa, digər tərəfdən, hər milli sistemin özünəməxsusluğunu, spesifikasını, xüsusiyyətlərini görməyə imkan verəjək.

Ümumtürk musiqi mədəniyyəti araşdırılmalarında müqayisəli metodun əhəmiyyəti heç bir şübhə oyatmır. Bu gün Azərbaycan musiqisini mürəkkəb, çoxtərkibli ümumtürk ənənəsinə daxil olan obyekt kimi araşdıran elmi işlərə rast gəlmirik. Müqayisəli metodun bu istiqamətdə açdığı imkanlar və perspektivlər praktiki olaraq reallaşmamışdır, çünki türk xalqlarının musiqisi sahəsində tədqiqatlar əksər hallarda daha çox fərdi məqamların qarşılaşdırılması ilə məhdudlaşır. Qeyd edək ki, ümumtürk dünyası strukturuna daxil olan müxtəlif milli mədəniyyətlərin qarşılıqlı təsiri və əlaqəsinin öyrənilməsi bu metodun ardicil tətbiqi, onun yeni-yeni tərəflərinin üzə çıxması, daha mürəkkəb və aktual

məsələlərin aşkarlanması ilə müşayiət olunan təkmilləşməsi zəruridir. Ən əsası isə odur ki, tədqiqatçı yalnız bir nəticəni deyil, qarşılaşdırılan obyektlərin fərqləri haqda məlumatların daxil olduğu bütöv bir elmi məlumatlar sistemi qazanajaq.

Azərbaycan və Türk xalqlarının xalq yaradıcılığı ilk növbədə musiqi mədəniyyətlərinin genetik laylarının kəsiyində özünü büruzə verən qohumluq parametrlərinə malikdir. Bu layların dinamik imkanlarını – məkan (tarixi-mədəni) və zaman (müasir tarixi mərhələyə aiddan) xasiyyətnamələrini üzə çıxarmaq üçün müqayisəli təhlilin iki sinxron və diaxron, başqa sözlə, funksional və müqayisəli-tipoloji istiqamətini sintezləşdirmək lazımdır. Sinxron nəzər bir sıra arxetiplərin xarakter və funksiyasını, onların vahid sistemin variantları kimi korrelyasiyasını öyrənməyə imkan verir. Musiqi ənənəsinin, onunla münasibətlə xariji faktor rolunu oynayan amillərlərlə (dil, mifologiya, maddi mədəniyyət, mərasim), dövrün xarakteri ictimai şüur formaları və s. ilə qarşılıqlı əlaqələrin açılması diaxron müqayisəni müəyyənləşdirir. Bunun nəticəsində arxetiplərin müxtəlif milli və regional sistemlərdə musiqi in-kişafının təkamülü prosesində yarana biləcək yeni aspektlər və xassələr üzə axajaq. Müqayisəli təhlili cəlb olunan materialın miqyası geniş olduqca müqayisəli metodun sinxron və diaxron aspektləri daha üzvü şəkildə qovuşur. Bu tədqiq olunan materialın obyektiv məzmunu ilə bağlıdır. Beləliklə, araşdırılan istənilən material «üfqi» və «şaquli» kəsiklərin çarpazlaşmasında işıqlandırılır, yəni özünün tam xasiyyətnaməsini alır.

Beləliklə, Azərbaycan və Türkiyə xalq musiqisinin müqayisəli təhlili metodologiyasında dörd mərhələdən ibarətdir:

1) hər iki xalqın folklorunda arxetiplərin müəyyənləşdirilməsi;

2) onların fəaliyyət sferalarının qarşılaşdırılması;

3) milli özünəməxsusluğun, fərqlərin müəyyənləşdirilməsi məqsədi ilə arxetiplərin təsnifatının aparılması;

4) onlar arasında intonasiya-tipoloji əlaqələrin açılması indi isə bu təzislərin daha müfəssəl izahına keçək.

İndi isə bu tezislərin daha müfəssəl izahına keçək.

Artıq qeyd olunduğu kimi, janr analogiyaları iki mədəniyyəti vahid musiqi məkanında birləşdirir. Xalq musiqisinin fundamentini təşkil edən identik intonasiya modelləri bütöv strukturun melodik cəhətdən ifadəli və əhəmiyyətli komponentləridir. Axırıncılar isə ladintonasiya prosesində mühüm funksiya yerinə yetirərək onun müxtəlify formalarının kristallaşmasının əsasına çevrilir. İntonasiya modellərinin sabitliyi və stabilliyi onların türksoylu tayfaların musiqili-nitq genofondu ilə genetik əlaqələri ilə sərtlənmişdir. Onlar müəyyən məna yükünə malik formul intonasiya dönmələrindən ibarət tipoloji təbəqəni yaradır. Burada tipoloji səhiyyənin ilkin protontonasiya və genetik kodu,

formulluğu müəyyənləşdirən qanunauyğunluqları fəaliyyət göstərir. Hər bir musiqi hadisəsi öz dövrü ilə rəngarəng əlaqələrdə olur. Bu əlaqələr bədii xüsusiyyətlərdə də öz əksini tapır.

Azərbaycan və türk xalqının musiqi praktikasında əsrlər boyu bir çox ifaçı və müğənninərin yaradıcılıq təcrübəsində ümumiləşdirilmiş formula ladintonasiya dönmələri kristallaşmışdır. Bu sabit kanonlaşmış modellər qeyri-adı, həssas xalq yaddaşında həkk olmuşdur. Şübhəsiz, bu cür tipoloji dönmələr müəyyən vaxtdan sonra qanunauyğunluqlar statusu almış müəyyən qarşılıqlı əlaqələrə əsaslanır: «hər vasitənin ifadəli imkanları bu və ya digər təbii müqəddəm şərtlərə (akustik, bioloji, psixoloji) dayaqlansa da, əhəmiyyətli sərəcədə hər hansı bir musiqi sistemindəki yerindən və rolundan asılıdır. Müxtəlif sistemlərdə eyni və ya oxşar vasitələrin funksiyaları və mənası müxtəlif ola bilər». Bu tezis bizim nəticələrimizi təsdiq edir: əgər Azərbaycan və Türkiyə musiqisində qohum funksional mənalı analoji ladintonasiya dönmələri mövcuddursa, deməli bu iki musiqi ənənələrinin formalaşması eyni bir bədii sistemdə baş vermişdir. Bu zaman baş verən proseslər üçün xariji impulslar tarixi faktorlardırsa, bu proseslərin müəyyən bədii sistemdə üzə çıxmaq imkanları strukturun öz daxili, məxfi potensialları ilə şərtlənmişdir. Strukturun daxili genetik imkanları öz «energetik» imkanlarını semantik əhəmiyyətli, genetik müəyyənləşmiş arxetiplərin fəaliyyətində reallaşdırır. Bu cür müqəddəm şərtlər onların tipikləşməsi və janr mənsubluğu üçün gözəl imkanlar yaradır. Şübhəsiz, ladintonasiya modelləri mahiyyət etibarilə, xalqın bədii yaddaşının tarixi inkişafı mərhələlərini əks etdirir. Onlar əsrlər boyu kristallaşaraq tipik intonasiya cövhərinə – folklor ənənəsinin dərindən dərk olunması səviyyəsində fəaliyyət göstərən semantik «işarə»yə çevrilir. Bununlada biz ümumtürk musiqi sisteminin «intonasiya kökünü» üzə çıxarmağa, onun tipoloji sırasının dərk edilməsinə yaxınlaşa bilərik.

İndi bizim problemlə bağlı «tipolocı sıra» anlayışının bəzi xasiyyətnamələrini aşkarlayar.

1. Tipoloji sıra anlayışı ümumtürk musiqi mədəniyyəti tarixində üzə çıxan proses və olayların obyektiv mövcud olan (özü də sinxron və diaxron mühitdə) tipoloji ümumidiyidir.

2. Bu anlayışda bütün rəngarəng materialdan keçən sabit melodik tiplər cəmləşir. Eyni zamanda tipoloji sıra anlayışı bu tiplərin fəaliyyət göstərdiyi formaların tarixi dəyişiklərlə korrelyasiya edir. Şübhəsiz, axırıncı amil ümumi «göstəriciləri» saxlamaq şərtilə müəyyən bir «intonasiya müstəvisi»nin hüdudları ilə tənzimlənir.

3. Ümumtürk musiqi mədəniyyətinin müqayisəli oyrənilməsinin şaxələnmiş və çoxpilləli sistemində tipoloji sıra anlayışı tədqiqatın iri vahidi rolunu oynayır. Bu zaman vahidlərin iriləşməsi miqyası, yeni hər dəfə tipoloji